

*İmam Cəmilli*

# ŞAMA BƏNZƏR ÖMÜR

*Mən də körpə olub yenidən sənin,*
*Həvəslə qapını açaydım, məktəb.*
*Sevəydim müəllimin baxışlarını,*
*Parta arxasına keçəydim, məktəb.*

**Bütün peşələr gözəldi. Peşələr içərisində iki müqəddəs peşə var. Müəllimlik və həkimlik. Ona görə bu peşələr müqəddəsdir ki, insanlar gələcəyini müəllimə, sağlamlığını isə həkimə etibar edir. Hər oxuyan Molla Pənah olmadığı kimi, hər dərs deyən müəllim də müəllim kimi xatirələrdə qalmır. Xatirələrdə qalmaq, dərs dediyi şagirdin qəlbində iz qoymaq üçün şam kimi yanmalıdır müəllim, - Məmiş müəllim kimi.**

Məmişov Məmiş Əlbəndə oğlu 1914-cü ildə Kəlbəcərdə anadan olub.

Birinci Dünya müharibəsinin çətinlikləri ucqar dağ kənd və şəhərlərindən də yan keçməyibdir. Çətinlikləri dəf edən Kəlbəcər camaatı övladlarının təhsil almalarına xüsusi diqqət göstərirdilər. Artıq böyüyüb təhsil alan Məmişov Məmişi Kəlbəcərin Cəmilli kənd məktəbinə, ibtidai sinif müəllimi göndərir-lər.

Məmiş müəllimin ilk şagirdlərindən biri də mən olmuşam. Aradan yetmiş ilə yaxın bir vaxt keçməsinə baxmayaraq uzunboylu, nazik bədənli, qara saçlı, iti baxışlı, "Ana" və "Vətən" sözlərini ilk dəfə yazıb oxumağı öyrədən Məmiş müəllimin qəlblərdə izi qalan gör nə qədər mənim kimi şagirdi var?

Cəmillinin ilk ziyalılarından hesab olunan Məmiş müəllim Cəmilliyə gəlişi ilə bərabər, sanki özü boyda bir işıq gətirdi. Həmin işığın sayəsində Cəmillinin nə qədər yeniyetməsinin qəlbində elmə, təhsilə qarşı bir maraq oyandı.

Məmiş müəllim bizə dediyi dərslərin hər birində şam kimi yanırdı. Bunu böyüyəndə başa düşdüm. Çıraq öz dibinə işıq salmadığı halda, Məmiş müəllim öz işığı ilə biz balacaların qaranlıq qəlblərində işıq yandıra bilirdi. Amma bu çox əziyyətlər hesabına başa gəlirdi. Kənddə böyük hörmət-izzət sahibi idi Məmiş müəllim. Gənc olmasına baxmayaraq kənd camaatının məsləhət yeri idi.

Onun keçdiyi hər bir dərsi, təbiət və cəmiyyətlə əlaqələndirməsini indi də xatırlayıram. Bəzən elə olurdu dərsi açıq havada, təbiətin qoynunda keçirdi. Tədris vaxtı, ekskursiyalarda Kəlbəcərin, xüsusən Cəmillinin flora və faunası ilə tanışlıq zamanı yaşadığımız doğma kəndimiz, uca dağlar, yaşıl meşələr, gül-çiçəkli çəmənlər gözümdə dəyişərək yeni bir rəng alır, düşüncəmdə tamam dəyişirdi.



Doğma torpağa məhəbbət və onu əbədi, əzəli beşik kimi sevməyi Məmiş müəllimdən öyrənmişik.

Kənd məktəbində ibtidai təhsili başa vurandan sonra, təhsilimizi davam etdirmək üçün qonşu Seyidlər kəndinə getməyə məcbur olurduq. Bizim yaxşı oxuduğumuzu görən müəllimlər tez-tez "Halaldı Məmiş müəllimə. Yaxşı dərs keçib", demələrini eşidəndə köksümüz qabarırdı.

Qaçqınlıq zamanı Məmiş müəllim də soydasları kimi doğma od-ocağından ayrı düşdü. Qaçqınlıq taleyi yaşayan Məmiş müəllimin xəstələndiyini eşitdim. Yoxlamaq məqsədi ilə yola düşdüm.

Qapıdan girəndə çarpayıda uzanmış müəllim səsə baxışlarını mənə tərəf hərlədi və zəif bir səslə "Xoş gəlmisən" deyib, başını ba-lıncdan qaldırmaq istədi.

Bu zaman qalxmasına mane oldum və görüşdük. Keçənləri yada saldıq. Ayrılanda öləzimiş baxışlarla üzümə baxaraq bir ah çəkdi və "Mən Kəlbəcəri bir daha görməyəcəyəm" söylədi. Ürəkdirək versəm də, özlüyümdə hiss edirdim ki, sözlərim quru təsəllidən başqa bir şey deyil.

Bu zaman müəllimin bu heysiz bədəni, solğun bənizi, öləzimiş baxışları ilə bizə dərs dediyi gənclik illərini xəyalımda müqayisə edirdim. Şam kimi həzin-həzin, gilə-gilə yanan Məmiş müəllim öləziməkdə olan şama bənzəyir. Ayrıldıq.

Aradan az müddət keçmiş eşitdim ki, Məmiş müəllim dünyasını dəyişib. 1999-cu ildə Məmiş müəllimi Goranboy rayonunun Zeyvə kənd qəbiristanlığında torpağa tapşırdıq. Ruhu şad olsun.

Hamı köçəcək bu dünyadan. Dünya heç kimə qalası deyil.

Mənalı yaşamaq, özündən sonra bir iz qoymaq hər adama qismət olası da iş deyil.

Məmiş müəllim kimi yanmağı bacar ki, özündən sonra qəlblərdə bir izin qalsın.

*Müqəddəs sayılan bir varlığımsan,*
*Sözündən güc alıb sözüm, müəllim.*
*Sənin ünvanından bu yer üzünə,*
*Düşüb bir silinməz izin, müəllim.*

*Qəlbin çiçək kimi təmizdir, təmiz,*
*Hər sözün bir dərya, hər sözün dəniz.*
*Sən ki, ülviliklə əkizsən, əkiz,*
*Doymaz varlığından gözüm, müəllim.*

*Ağrıya, əzaba sinə gərmisən,*
*Mənə bu həyatda yol göstərmisən,*
*Ömründən hamıya sən pay vermisən,*
*Baharım, çiçəyim, yazım müəllim,*
*Sözündən bar tutub sözüm, müəllim.*